**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

Təsdiq edirəm
"Biznes və logistika" kafedrasının
müdiri: dos. Əliyev M.Ə.
09 sentyabr 2025-2026-cı tədris ili

# "TƏŞKİLATİ DAVRANIŞ" fənni üzrə
# İŞÇİ TƏDRİS PROQRAMI (Sillabus)

## *I.* Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | *00882* |
| **Fənnin növü:** | **seçmə** |
| **Tədris ili:** | **2025/2026** |
| **Tədris semestri:** | **payız** |
| **Fakültə:** | **Biznes və menecment** |
| **Qrup:** | **550-1, 550-2, 550-3.** |
| **Tədris yükü:** | **60 saat (mühazirə/məşğələ -30/30)** |
| **Kredit sayı:** | **4 (dörd)** |
| **Kafedra:** | **"Biznes və logistika"** |

## *II.* Müəllim haqqında məlumat

| | | |
|---|---|---|
| **Fənni tədris edən müəllim:** | **b/m Sadıqova Zülfiyyə** | |
| **E-mail ünvanı:** | **sadiqova-zulfiyye@mail.ru** | |
| **whatsapp:** | **070 220 40 20** | |
| **Tələbələrə məsləhət saatları:** | **II** | **IV günlər** |
| | **12.00-dan** | **13.00-dək** |

## ***III.*** **Fənnin təsviri**

Bu fənn, ümumi (əsas) fənlər siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsil alan tələbələrə fərdlərin təşkilat daxilində sərgilədikləri fərqli davranışları və bu fərqliliklərə səbəb olan faktorları, fərdlərin necə qərar aldıqlarını, hansı ünsürlərin fərdləri stimullaşdırdığını, fərdlərin davranışlarına təşkilati mühitin necə təsir etdiyini anlamaq üçün lazım olan bacarıq və vərdişləri aşılayır.

"Təşkilati davranış" kursunun strukturunu bir-birini izləyən və bir-birilə qarşılıqlı əlaqədə olan mövzular təşkil edir. Bu kurs çərçivəsində təşkilati davranışın təməlini təşkil edən yanaşmalar, şəxsiyyətlə bağlı nəzəriyyələr, şəxsiyyət tipi ölçmə metodları, təşkilatlarda münasibətlər və onların ölçülməsi, münasibətə təsir edən faktorlar, motivasiya nəzəriyyələri və metodları, qrupa üzv olma və səbəbləri, təşkilati ünsiyyət, liderlik nəzəriyyələri, təşkilati münaqişənin idarəedilməsi, təşkilatda siyasət və güc, təşkilati bağlılıq və təşkilati ədalət, təşkilat mədəniyyətin qurulması və davam etdirilməsi, müasir təşkilat strukturları, şəxsi və təşkilati stresin idarəedilməsi, təşkilati davranışda postmodern yanaşmalar kimi mövzu və alt mövzuların hərtərəfli tədrisi nəzərdə tutulmuşdur.

## ***IV.*** **Fənnin məqsədi və vəzifələri**

"Təşkilati davanış" fənninin əsas məqsədi tələbələrə təşkilat daxili davranışları fərdi, fərdlərarası və kollektiv olmaqla 3 səviyyədə analiz etməyi, fərdləri, qrupları və bütövlükdə təşkilat daxili insani münasibətləri idarə etməyi öyrətməkdir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- İnsan davranışlarının öyrənilməsinin təşkilat üçün əhəmiyyəti haqqında tələbələrdə tam təsəvvür formalaşdırmaq;
- İnsanların fərqli şəraitdə necə davrandıqlarını və insanların niyə birbirindən fərqli davranış sərgilədiklərini tələbələrə izah etmək;
- Tələbələrə insan davranışlarını proqnozlaşdırmaq, insan davranış və münasibətlərini effektiv idarə etmək, problemli situasiyalarda həlli yolları tapmaq və müvafiq strategiyalar formalaşdırmaq kimi bacarıqları qazandırmaq.

## **VI. Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Təşkilati davranışın nəzəri əsaslarını;
- Qərar vermə metodlarını və modellerini;
- Müxtəlif liderlik tərzlərini və liderlərin qərar vermə prosesindəki rollarını;
- Müxtəlif təşkilati strukturların işçilər üzərindəki təsirlərini;
- Təşkilati münaqişələrin fayda və zərərlərini;
- Təşkilat daxili münaqişələrin həll edilməsi yolları və strategiyalarını;
- Təşkilat daxili stress mənbələrini vs.

**Bacarmalıdırlar**:

- Bir idarəçi olaraq təşkilati mədəniyyəti formalaşdırmağı;
- İşçiləri motivasiya etməyi;
- Təşkilat daxili fərqliliklərin effektiv idarə edilməsini;
- Təşkilat daxili effektiv ünsiyyət sistemini qurmağı;
- Təşkilat daxilində qrup dinamiklərini müəyyənləşdirməyi, qruplar formalaşdırmağı və onları idarə etməyi;
- Təşkilati dəyişiklikləri idarə etməyi vs.

**Kursun proqramı**

Proqram 15 mühazirə, 15 seminar olmaqla 30 saata əsaslanır. Proqram mühazirələr, müzakirələr, tapşırıqlar və məşqlər, qrup işi, praktik məşğələlər və iş müzakirəsini əhatə edir.

## VII. Prerekvizitlər

Yoxdur.

## VII. Fənnin mühazirə mövzuları

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək: 1.

| |
|---|
| Təşkilati davranış anlayışı, tarixi və təməl yanaşmaları |
| Təşkilatda iş məmnuniyyəti |
| Şəxsiyyət və dəyərlər |
| Qavrama və atribusiya prosesi |
| Təşkilatda qərar vermə |
| Motivasiya nəzəriyyələrinin təşkilatda tətbiqi |
| Qruplar və komandalar |
| Təşkilati ünsiyyət |
| Güc, siyasət və liderlik |
| Təşkilati münaqişə |
| Təşkilati strukturun təməl xüsusiyyətləri |
| Təşkilati mədəniyyət |
| Təşkilatda insan resursları siyasəti |
| Təşkilati dəyişiklik və stresin idarə edilməsi |
| Təşkilati davranışda postmodern yanaşmalar |

**Fənnin tədris metodologiyası**

Bu fənn çərçivəsindəki hər mövzu nəzəri yanaşmalar kontekstində situasiya təhlili, fərdi və komanda tapşırıqları, sinif daxili diskusiyalar, bacarıq əsaslı fəaliyyətlər tipli texnika və metodlar tətbiq olunmaqla tədris olunur.
Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## IX. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında universitetin veb saytındakı tələbə kabinetində yerləşdirilir.nin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları “EDUMAN” sistemi vasitəsi ilə elektron

formatda hər bir tələbənin şəxsi kabinetinə yönləndirilir.

## X. Əsas dərslik və dərs vəsaitləri

Qeyd: Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.


1. Stephen P. Robins, Timothy A.Judge , Organizational Behavior, Pearson, 2019

2. Steven McShane and Mary Von Glinow -M: Organizational Behavior 4th Edition, Mc, Grow-Hill, 2019

3. Robert B. Denhardt and etc,Managing Human Behavior in Public and Nonprofit Organizations, Sage, 2020

4. Salih Güney, Örgütsel Davranış, Nobel yayınevi, 2020

5. Erol Eren, Örgütsel Davranış ve Yönetim psikolojisi, Beta, 2020

6. Editör Enver Aydoğan, Örgütsel Davranış odaklı yönetsel yaklaşımlar, Gazi, 2018


## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| No. | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Təşkilati davranış anlayışı, tarixi və təməl yanaşmaları | - Təşkilati davranış anlayışının mahiyyəti və əhatə dairəsi<br>- Təşkilati davranışın tarixi və inkişafı<br>- Fənnin qarşısında duran vəzifələr<br>- Menecer və liderin təşkilati davranışda rolu<br>- Təşkilati davranış modelləri | Stephen P. Robins, Timothy A.Judge<br>Steven McShane and Mary Von Glinow<br>Robert B. Denhardt and etc<br>Erol Eren<br>1-ci fəsil<br>Salih Güney<br>2-ci fəsil |
| 2 | Təşkilatda iş məmnuniyyəti | - 1. Təşkilatda iş məmnuniyyəti anlayışı<br>- 2. Duyğu və düşüncələrin təşkilati davranışda rolu<br>- 2. İş məmnuniyyəti və motivasiya<br>- 3. Məmnun olan və olmayan işçilərin işə təsiri<br>- 3. İş məmnuniyyətinin artırılmasına təsir edən amillər | Stephen P. Robins, Timothy A.Judge<br>2-ci Fəsil<br>Steven McShane and Mary Von Glinow<br>12 Fəsil<br>Salih Güney<br>7 fəsil |
| 3 | Şəxsiyyət və dəyərlər | - Şəxsiyyət anlayışı<br>- Temperament tipləri<br>- 5 böyük Şəxsiyyət xüsusiyyəti<br>- A və B tipi şəxsiyyət xüsusiyyətləri<br>- Myers briggs şəxsiyyət tipi göstəriciləri<br>- Dəyərlər | Stephen P. Robins, Timothy A.Judge<br>3 Fəsil |

| | | | |
|---|---|---|---|
| 4 | Qavrama və atribusiya prosesi | - Qavrama anlayışı<br>- Qavramağa təsir edən daxili və xarici amillər<br>- Qavramada səhvlər: fiziki və sosial-psixoloji<br>- Atribusiya prosesi | Stephen P. Robins, Timothy A.Judge<br>4 Fəsil |
| 5 | Təşkilatda qərar vermə | - İdarəetmə qərarlarının növləri<br>- Problemlərin rasional həll edilməsi mərhələləri<br>- Qərar qəbulunda sterotiplər<br>- İdarəetmə qərarlarının təsnifləşdirilməsi sxemi<br>- Qərar qəbulunda kreativlik | Stephen P. Robins, Timothy A.Judge<br>5 Fəsil |
| 6 | Motivasiya nəzəriyyələrinin təşkilatda tətbiqi | - Motivasiya anlayışı<br>- İlkin motivasiya nəzəriyyələri:Duqlas MakQreqor «X» və «Y» nəzəriyyəsi, Herzberg'in İki - Faktor nəzəriyyəsi<br>- A. Maslou tələbatlar piramidası və Mak-Klelland nəzəriyyəsi.<br>- Müasir motivasiya nəzəriyyələri: işin strukturu (dizaynı),<br>- Məqsəd təyini nəzəriyyəsi və gözləmə nəzəriyyələri | Stephen P. Robins, Timothy A.Judge<br>7 Fəsil<br>Steven McShane and Mary Von Glinow<br>5 Fəsil<br>Erol Eren<br>22 fəsil<br>Salih Güney<br>14cü fəsil<br>Robert B. Denhardt and etc<br>6-cı fəsil |
| 7 | Qruplar və komandalar | - Qrup anlayışı və qrupların təsnifatı<br>- Qrup və komandanın fərqləndirici xüsusiyyətləri<br>- Komandanın növləri və xüsusiyyətləri<br>- Qruplara üzv olmaq səbəbləri<br>- ASCH Və Şerif tədqiqatları<br>- Festinger Konqnitiv dissonans nəzəriyyəsi | Stephen P. Robins, Timothy A.Judge<br>9 Fəsil<br>Erol Eren<br>5 fəsil<br>Steven McShane and Mary Von Glinow<br>7-ci fəsil |
| 8 | Təşkilati ünsiyyət | - Ünsiyyət anlayışının mahiyyəti<br>- Təşkilati ünsiyyətin funksiyaları<br>- Təşkilatda ünsiyyətin növləri<br>- Təşkilati kommunikasiya şəbəkələri<br>- Kommunikasiyaya mane olan amillər<br>- Təşkilatda müasir kommunikasiya üsulları | Stephen P. Robins, Timothy A.Judge<br>11 Fəsil<br>Steven McShane and Mary Von Glinow<br>8 Fəsil<br>Salih Güney<br>6 fəsil |

| | | | |
|---|---|---|---|
| 9 | Güc, siyasət və liderlik | - Liderlik anlayışı<br>- Liderliyin növləri və səciyyəvi xüsusiyyətləri<br>- Güc anlayışı<br>- Gücün tətbiqi üsulları<br>- Siyasət anlayışı<br>- Siyasi davranışın səbəb və nəticələri | Stephen P. Robins, Timothy A.Judge<br>12 Fəsil<br>Erol Eren<br>20 fəsil<br>Salih Güney<br>15 fəsil<br>Robert B. Denhardt and etc<br>7fəsil |
| 10 | Təşkilati münaqiş ə | - Münaqişələrin mahiyyəti və onun tipologiyası<br>- Təşkilatda münaqişənin yaranmasının əsas səbəbləri<br>- Təşkilatda münaqişə prosesinin modeli<br>- Münaqişələrin qarşısının alınması və həll olunması metodları | Stephen P. Robins, Timothy A.Judge<br>14 Fəsil<br>Steven McShane and Mary Von Glinow<br>10 Fəsil |
| 11 | Təşkilati strukturun təməl xüsusiyyətləri | - Təşkilati strukturun istiqamətləri<br>- İdarəetmənin təşkilati struktur formaları<br>- Təşkilati strukturun müasir növləri<br>- Təşkilatı-struktur və idarə¬etmənin səmərəliliyi.<br>- Qloballaşmanın təşkilati struktura təsirləri | Stephen P. Robins, Timothy A.Judge<br>11 Fəsil |
| 12 | Təşkilati mədəniyyət | - Təşkilati mədəniyyət anlayışının mahiyyəti və xüsusiyyətləri<br>- Təşkilati mədəniyyətin formalaşması<br>- Təşkilati mədəniyyətin funksiyaları<br>- Təşkilat mədəniyyətinin ünsürləri. | Stephen P. Robins, Timothy A.Judge<br>16 Fəsil<br>Steven McShane and Mary Von Glinow<br>13 Fəsil<br>Salih Güney<br>8 fəsil<br>Robert B. Denhardt and etc<br>12-ci fəsil<br>Erol Eren<br>21-ci bölüm |
| 13 | Təşkilatda insan resursları siyasəti | - İşçi heyətin seçilməsi prosesi<br>- İşçi heyətin təlimi və inkişafı<br>- Performans qiymətləndirmə anlayışı<br>- Performans qiymətləndirmə metodları | Stephen P. Robins, Timothy A.Judge<br>13 Fəsil |
| 14 | Təşkilati dəyişiklik və stresin idarə edilməsi | - Dəyişiklik anlayışının mahiyyəti<br>- Dəyişikliyin idarəolunması metodu<br>- Dəyişikliyə səbəb olan vasitələr<br>- Dəyişikliklərə təsir edən amillər<br>- Stress anlayışının mahiyyəti<br>- Təşkilatda Stressin idararə olunması | Stephen P. Robins, Timothy A.Judge<br>18 Fəsil<br>Erol Eren<br>14 fəsil<br>Salih Güney<br>16-cı fəsil<br>Robert B. Denhardt and etc<br>4-cü fəsil |
| 15 | Təşkilati davranışda postmodern yanaşmalar | - Təşkilati bağlılıq<br>- Təşkilati bağlılığa təsir edən faktorlar<br>- Təşkilati vətəndaşlıq<br>- Təşkilati vətəndaşlığın növləri<br>- Təşkilatda mobbinq | Enver Aydoğan<br>26-cı fəsil, 35 fəsil |

| | | | |
|---|---|---|---|
| | | - Mobbinqin prosesinin mərhələləri, səbəbləri və iştirakçıları<br>- Təşkilati ədalət<br>- Təşkilati səssizlik | |

**XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbə semestr ərzində 100 bal toplamalıdır. 20 bal seminar (məşğələ) dərsində toplanır. Tələbə seminar balını gündəlik olaraq dərsdə aktivlik göstərməklə toplayır. Tələbə hər 10 bal qiymətləndirildikdə yekunda hesabına 5 bal toplayır. Beləliklə tələbə dərslər zamanı ən azı 4 dəfə qiymət almalıdır ki, cəmi 20 bal toplamış olsun. Tələbənin dərsə davamiyyəti qeydə alınır. Davamiyyət tələbənin aktivlik balının toplanmasında əhəmiyyət kəsb edir.

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, testlər, keyslər və tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir.

**XIII. Sərbəst işlər (Qrup işi):** nəzərdə tutulmayıb.

**XIV. Fənn üzrə qiymətləndirmə**

| | | |
|---|---|---|
| Tələbələrin sərbəst (qrup) işinə görə | - | - |
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Ara imtahan | 30 bal | 30 % |
| Yekun imtahan | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

**Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana gədər toplanan ballar əsasında)**

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | Yaxşı | C |
| 61-70 bal | Kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

İmtahanın üsulu yazılı ilə keçiriləcəkdir. Test 50 sualdan ibarət olacaqdır. Hər bir sual1 baldır. Səhv cavablanan suallar, düzgün cavablanan sualların ballarını silmir. İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə baglı tələbənin hər-hansı şikayəti olarsa, Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya

Komissiyasına müraciət edə bilər.

**Qeyd:** Imtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq

Tərtib etdi : ____________ b/m Sadıqova Zülfiyyə